# Abbas Səhhət dünyasının məktəbli qonaqları





Bəşər övladı tarix boyunca xalqın, millətin taleyində müstəsna xidmətləri olan minlərlə dühanı, qəhrəmanı, fenomeni zamanın süzgəcindən keçirib gələcək nəsillərə ərmağan kimi ötürmüşdür. Millətin gələcəyini var edən, xalqın mənəvi yaddaşının cövhərini təşkil edən belə tarixi şəxsiyyətlər öz həyat yolları, tərcümeyi-halları ilə dünya tarixinə qızıl hərflərlə həkk olunmuşlar.

"Tərcümeyi-halım amalımdır", - deyib bütün ömrünü xalqa həsr edən, öz ömür çırağını minlərin , milyonların qəlbində yandırıb onların həyat yollarını elm, maarif nuruna, ziyasına qərq edən qüdrətli sənətkarlarımızdan biri olan Abbas Səhhət məhz belə ədəbi şəxsiyyətlərimizdəndir.

XX əsr Azərbaycan ictimai fikir tarixində, ədəbiyyatında əvəzsiz xidmətləri, fədakarlığı, əsl ziyalı təəssübkeşliyi, millət yanğısı ilə seçilən şair, həkim, ədib, müəllim A.Səhhət "Mən vətəni ruhum qədər sevirəm, Ətim, qanım, canım qədər sevirəm" söyləməklə məhz necə alovlu vətənpərvər olduğunu təzahür etdirmişdir.

XX əsr Azərbaycan ədəbiyyatının əsas sütunlarından biri olan A.Səhhət yaradıcılığı öz aktuallığı, bədii-estetik zövq mənbəyi olması ilə seçildiyi üçün tədqiqat obyekti olaraq qalmışdır.

BSU-nun nəzdində Məktəb-Lisey Kompleksinin 4 b sinif şagirdlərinin A.Səhhət dünyasına xəyali səyahətlərinin səbəbi də məhz böyük şairin yaradıcılığına olan hədsiz məhəbbətlərindən irəli gəlirdi.

Təhsil nazirinin ümumtəhsil məktəblərində mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı əmrini rəhbər tutaraq dərs dediyim dördüncü sinif şagirdləri ilə bu istiqamətdə müntəzəm iş aparır, tədbirlər keçirirəm. Növbəti belə tədbirlərin birində A.Səhhət dünyası körpə fidanların diliylə səhifə-səhifə vərəqləndi. Görkəmli şairin məhz onlar üçün yazdığı əsərlər böyük həvəslə təqdim olunarkən bu söz incilərinin hər bir şəxs üçün əsl həyat məktəbi olduğu diqqəti cəlb edirdi. A.Səhhətin ana, vətən xalq, maarif, dostluq və sairə ümumbəşəri mövzularda yazdığı onlarla əsər şagirdlərin ifasında çox məharətlə nümayiş etdirilirdi. Şairin şeirlərinə yazılmış mahnıları ifa edən uşaqların həyəcan qarışıq sevincləri üzlərindən oxunurdu.

Tədbir boyunca maraqlı çıxışlar, tərcümə əsərlərindən ibarət səhnəciklər, rəqslər, oxuduqları əsərlər üzrə fraqmentlər şəklində səhnələşdirilmiş tamaşa nümunələri xüsusilə seçilirdi.

"Cəhalətin səmərəsi" uşaq dramını bütünlüklə səhnələşdirən dördüncülər XX əsrin əvvəllərində cəhalətin tüğyan etdiyi yaşam mühitini özlərinə məxsus şəkildə çatdırdılar. Elmin, biliyin ən böyük xəzinə olduğunu aşılayan bu dram əsəri şagirdlərin həyat yolunun müəyyənləşməsində və vətəndaşlıq tərbiyəsində böyük təsir gücünə malikdir.

Vətən, millət mövzusu tədbirin əsas ana xəttini, leytmotivini təşkil etməklə balaca fidanların əsl vətənpərvər kimi formalaşmasında mühüm əhəmiyyət kəsb etdi.

Tədbirin sonunda şagirdlərin A.Səhhətin "Vətəni sevməyən insan olmaz! Olsa, ol şəxsdə vicdan olmaz!" misralarını bütün zala toplaşanlara söylətmələri ən təsirli məqamlardan biri kimi yaddaşlara həkk olundu.

Daha sonra zalda əyləşən şagird tamaşaçılarla maraqlı diskussiya, fikir mübadiləsi aparılaraq tədbir boyu ifa olunan əsərlərə münasibət bildirildi.

Təhlil zamanı tamaşaçılar fəallıq göstərərək şairin qələmindən çıxan əsərlərə uşaq gözü ilə səmimi şəkildə qiymət verməyin, fikir söyləməyin qürurunu, sevincini yaşadılar.

Sonda kompleksin direktoru İ.Carçıyeva çıxış edərək gənc nəslin tərbiyəsində bu əsərlərin müstəsna rolundan danışdı. O, kompleksdə ənənə şəklini almış bu cür tədbirlərin şagirdlərin mənəvi aləminin zənginləşməsində xüsusi əhəmiyyətindən bəhs etdi.

Tədbirdə iştirak edən digər qonaqlar da öz çıxışlarında Abbas Səhhət yaradıcılığının həmişəyaşarlığından, aktuallığından, əvəzsiz təsir gücündən danışaraq bu cür tədbirlərin mütaliə vərdişlərinin inkişaf etdirilməsi üçün vacibliyini qeyd etdilər. Mən çıxışımda təhsil nazirinin müvafiq əmrinin şagirdlərin mütaliəsi işinin təşkilində təcrübədə sınaqdan çıxmış ənənələri bərpa etmək, onların mütaliəyə həvəsini daha da artırmaq və mütaliə vərdişlərini inkişaf etdirmək sahəsində xüsusi əhəmiyyətindən söhbət açdım, bu cür tədbirlərin silsilə şəkildə təşkilinin önəmliliyini vurğuladım.

Sonda xatirə şəkilləri çəkdirildi.

**Saray ASLANOVA,**
*Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksinin ibtidai sinif müəllimi*